Polşa Respublikasının
Bakıdakı Səfirliyi

**Mətnin müəllifi:** Voyçex Quretski
**Layihənin koordinatoru:** Yoanna Senkeviç
**Tərcüməçilər:** Sonya Piriyeva və Vüsalə Mustafayeva
**Dizayn və tərtib:** Katajına Kaleta
**Şəkillər © by** Polşa Respublikasının Bakıdakı Səfirliyi

**Copyright © by** Polşa Respublikasının Bakıdakı Səfirliyi
Bakı 2012
Bütün hüquqlar qorunur.

ISBN 978-83-931728-1-8

# Bakıda Polyak Məkanları

Polşa ilə Azərbaycan arasında ilk yaxın əlaqələr **XVI əsrə** təsadüf edir. Azərbaycanı öz tərkibinə daxil etmiş Fars dövləti Avropada özünə Osmanlı İmperiyasına qarşı tərəfdaş axtarırdı. Porta Dövləti ilə münaqişədə olan Polşa İran şahları üçün ideal müttəfiq idi. Qafqaz yollarında hər iki tərəfin **nümayəndələri və diplomatik agentlər** peydə olmuşdur. Onlar Polşada məşhur "şərq" malları – parça, soyuq silah, zərgərlik məmulatları və ədviyyatları buradan alan **tacirlərə** qoşurdular. Səyyahların üçüncü qrupunu **missionerlər** təşkil edir. XVII və XVIII əsrlərdə tarixi Azərbaycanın demək olar ki bütün böyük şəhərlərində Dominikan, karmelitlər və yezuit missiyaları fəaliyyət göstərirdi. Həmin missiyalarda olan rahiblərin çoxu polyak mənşəli idi.

**Polşanın bölüşdürülməsi, həmçinin Qafqazın ruslar tərəfindən işğalı nəticəsində Varşava və Bakının bir dövlətdə birləşməsi XIX əsrdə əlaqələrin intensivləşməsinə səbəb oldu.** Azərbaycana o zaman səfər edən, sayı şişirtmədən minlərlə olan həmyerlilərimizi iki qrupa ayırmaq olar. **Birinci qrup**, adətən buradakı qarnizonlarda (Qafqazı "isti Sibir" adlandırırdılar) cəza hərbi xidməti çəkməyə məhkum olan **sürgün edilmişlərdən ibarət idi. İkinci qrupa isə buraya iş, karyera qurmaq, pul qazanmaq üçün könüllü olaraq gələnlər daxil idi.** Çox vaxt bu insanlar yüksək ixtisaslı olan mütəxəssislər idi: müxtəlif sahələrin mühəndisləri, memarlar, həkimlər və alimlər.

Polşadan Qafqaza qazanc arxasınca mühacirət **XIX əsrin ikinci və üçüncü dekadasında** yüksəlmişdir və bu **Bakıda neft bumu** ilə bağlı idi.



[1] Bəziləri --həm birinci, həm də ikinci qrupdan olanlar özlərindən sonra adətən rəngli və çox maraqlı, lakin qayda olaraq ilk nəşrdən dəyişilməyən çap olunmuş xatirələrini qoymuşdular. (bu əsərlərin bir hissəsi Milli Rəqəmsal Kitabxananın səhifəsində yerləşdirilib: http://www.polona.pl/dlibra).

653

"Neft həyəcanı"na qədər kiçik şərq şəhəri olan Azərbaycanın paytaxtı qısa bir zamanda bir neçə yüz minli qərbləşmiş metropolisə çevrildi. **XX əsrin əvvəlində Bakı dünya neftinin yarıdan çoxunu istehsal edirdi!** I dünya müharibəsi başlanmazdan öncə Bakıdakı polyak koloniyası bir neçə min üzvü olan, möhkəm və olduqca zəngin cəmiyyət idi.

Azərbaycan neft sənayesi ilə bağlı ən məşhur polyaklar mühəndislər idi: **Vitold Zqlenitski** (1850-1904) və **Pavel Pototski** (1879-1932). Zqlenitski dünyada ilk dəfə olaraq dənizin dibindən neft çıxartmaq fikrinə gəlmiş və bunun üçün lazım olan cihazların layihəsini hazırlamışdı. İdeya həddindən artıq yenilikçi olduğu üçün rədd olunmuşdur. Lakin Bakı Körfəzinin bir hissəsini torpaqla dolduran (Zqlenitski tərəfindən təyin olunan yerdə) və bu üsulla neft yataqlarını yaradan başqa bir mühəndis bu ideyanı müəyyən dərəcədə realizə etmişdir. Geologiya və neft hasilatı sahəsində xidmətlərindən başqa, Vitold Zqlenitski Myanovski adına Kassa fonduna Suraxanı neft yatağından əldə edilən gəlirləri verərək, tarixdə polyak elminin ən səxavətli sponsoru oldu. Bolşeviklər tərəfindən neft yataqlarının milliləşdirilməsinə qədər kassanın hesabına 1.773.917 rubl (təqribən 2.400.000 o zamanki dollar) dəyərində məbləğ köçürülmüşdü.

Neft maqnatları – **polyak Rılskilər ailəsi**, mühəndis və Xəzər Dənizini Qara Dənizlə birləşdirmiş ilk neft kəmərinin inşaatçısı, həmçinin *"Qafqaz Xatirələri"* kitabının müəllifi, **Tadeuş Vıqanovski** (güman ki, 1877-1926), eyni zamanda, Azərbaycanda su kəmərlərini çəkən **Stefan Skjıvanı** (1876-1932) xatırlamağa dəyər.

Yeri gəlmişkən, Bakıda geoloqlar – Polşada ilk əvvəl Krınitsada mineral suyun mənbələrini kəşf edən və bu suya öz soyadını verən **Rudolf Zuber** (1858-1919) və **onun oğlu Stanislav** (1893-1947), həmçinin körpü inşaatçıları – **Stanislav** (1810-1899) və **Mixal** (1854-1932) **Kerbecovlar** da olmuşlar.

Polyaklar Bakının memarlığında ən böyük iz qoydular. Bakının sürətlə çiçəklənmə dövrünə düşən 22 il ərzində, şəhərin baş memar vəzifəsini, ardıcıl olaraq, dörd polyak icra edirdi: **Yuzef Qoslavski** (1865-1904, 1892-1904-cu illərdə Bakı şəhərinin memarı), **Kazimej Skureviç** (1866-1950, 1904-1907-ci illərdə memar), **Yuzef Ploşko** (1867-?, 1907-1910-cu illərdə memar) və **Konstantı Borısoqlebski** (?-?, 1910-1914-cü illərdə memar). Hamısı inzibati vəzifəni icra etməkdən və Bakının tikilmə planına töhfəsindən əlavə, bacarıqlı layihəçi olmuş və özlərindən sonra şəhərin rəmzlərinə çevrilmiş obyektləri qoymuşdular. Bu dördlükdən əlavə, **Eugeniuş Skibinski** də (1858-?, Bakı Dəmir Yol Vağzalının ortaq layihəçisi) seçilirdi.



Möhtəşəm polyak həyatına I dünya müharibəsi son qoydu (həmyerlilərimiz xeyriyyə cəmiyyətlərini yaradır, jurnallar nəşr edir, həmçinin ödəmələri yığaraq rəğbət oyadan katolik kilsəni neoqotik üslubunda inşa edirdilər). Polyakların bir hissəsi elə o zaman köçüb getmiş, qalanları isə 1918-1920-ci illərdə mövcud müstəqil Azərbaycan Demokratik Respublikasının devrilməsi və ölkənin Sovet Rusiyasına birləşməsindən sonra buranı tərk etmişdir. Burada bir neçə nəfər qaldı, onlardan, mühəndislər, **Pavel Pototski** və **Pavel Koqnovitski** idilər.

Stefan Jeromskinin (1864-1925) *"Yazın əvvəlində"* kitabı Polşa və Azərbaycan arasındakı əlaqələri birləşdirən simvol kimi tanımaq olar. Hətta Qafqazla maraqlanmayanlar bilirlər ki, bu, ən məşhur polyak əsərlərindən birinin əhvalatı Bakıda başlayır və burada cavan Sezarı Barıka *"bir neçə köhnə dostları ilə birgə dərslərdən qaçıb ətrafda avaralanır, hətta gecələr küçələrdə, çuxur və yolsuzluqda, zərdüştilik məbədləri və köhnə məscidlərin xarabalıqlarında gəzib dolaşırdı".*

*"Yazın əvvəlində"* hekayəsində təsvir olunan şüşə evlər 80 il sonra, məhz ikinci neft bumunu yaşayan Azərbaycanda tikilməyə başlayır. Təəssüflər olsun ki, hal hazırda yağışdan sonra göbələk kimi artan şüşə bina, apartament, sərgi salonları və ticarət mərkəzləri artıq polyak memarlarının işlərinə aid deyil.






# Bakı və Abşeron

1. Mühəndis, Pavel Pototskinin məzarı
2. Yuzef Qoslavskiyə xatirə lövhəsi
3. Yuzef Qoslavski:
   - 3a. Bakı Şəhər Dumasının binası
   - 3b. Yaşayış binası
   - 3c. Müsəlman Qız Məktəbi
   - 3d. Tağıyev Sarayı
   - 3e. Yaşayış binası
   - 3f. Tağıyevin villası
   - 3g. Tağıyevin toxuculuq fabriki
4. Kazimej Skureviç:
   - 4a. Dövlət Bankının binası
   - 4b. Rotşildlərin kontoru
   - 4c. Tağıyev pasajı
5. Yuzef Ploşko:
   - 5a. "İsmailliyə" binası
   - 5b. Murtuza Muxtarov Sarayı
   - 5c. "Yeni Avropa" Mehmanxanası
   - 5d. Yaşayış binaları
   - 5e. Kərbalai İsrafil Hacıyevin Sarayı
   - 5f. Ağa-Musa Nağıyevin evi
   - 5g. "Fenomen" kinosu
   - 5h. Hacı Sultan Əli Məscidi
   - 5i. Amiraslanovlar evi
   - 5j. Yaşayış binaları
   - 5k. Rılski ailəsinin köhnə evi
6. Konstantı Borısoqlebski - "Olqinski dükanları" binası
7. Eugeniuş Skibinski:
   - 7a. Vağzalının binası
   - 7b. Ağabala Quliyevin yaşayış evi
8. Leopold və Mstislav Rostropoviçlərin ev-muzeyi
9. Müqəddəs Məryəm katolik kilsəsinin yerləşdiyi məkan
10. Müqəddəs Məryəmin Qüsursuz Döllənməsi Katolik kilsəsi
11. Yanuş Korçak və Məmməd Tağı Sidqinin xatirə lövhəsi
12. "Farıs" jurnalının keçmiş binası
13. Bakı Slavyan Universitetində Polyak Dili və Mədəniyyəti Mərkəzi
14. Nargin adası (Böyük Zirə)

# 1. Mühəndis Pavel Pototskinin məzarı (1879-1932)

Bakı, Bibi-Heybət neft yataqları

Mühəndis, **Pavel Pototski** Peterburqda anadan olmuş, elə orada məktəbi bitirmişdir. Bakıya 1910-cu ildə, Bakı Körfəzinin bir hissəsini torpaqla doldurmaq üçün gəlmişdir. Artıq o zamanlar dənizin dibində çoxsaylı neft yataqlarının mövcudluğu haqqında fikirlər var idi ( bunu Bakıda fəaliyyət göstərən başqa polyak mühəndisi, Vitold Zqlenitski deyirdi), lakin onları hasil etmək alınmamışdır.

Layihə iyirmi ildən artıq davam etmişdi. Ölümcül xəstə, kor mühəndis - görmə qabiliyyətini hələ 1919-cu ildə itirməyə başladı – həyatının son dəqiqələrinə qədər işlərə rəhbərlik edirdi (işlər tam 1933-cu ildə bitmişdir). Mühəndisin qəhrəmanlığı Marqarita Aliqerini ilhamlandırmış və şairə *"Qoca"* adlı əsərini həsr etmişdir. Onun haqqında həmçinin Maksim Qorkiy də yazmışdır.

Pototski öz vəsiyyəti ilə, Bibi-Heybətdə, özü yaratdığı dənizin sahilində, neft nasosları və qazma platformalarının əhatəsində dəfn edilmişdir. 2004-cü ilin sonunda qəbir tələf olunmuşdur – baş daşı sındırılmış, məzarı əhatə edən hasar isə demək olar ki dağılmışdır (çox güman ki, orada yük maşını keçmişdir). Polşa Respublikasının Bakıdakı Səfirliyinin səyləri nəticəsində Polşa üçün simvolik və vacib olan bu məkan Şəhidlik və Mübarizə Xatirəsinin Qorunması üzrə Şuranın təqdim etdiyi vəsaitlə yenidən qurulmuşdur. Layihənin müəllifi, polyak və şərq elementlərini birləşdirən heykəltəraş, Rizvan Babayevdir.
Bərpa olunmuş qəbirdaşının açılışı 2005-ci ilin 9 noyabr tarixində keçirilmişdir. Polşadan gələn nümayəndə heyətləri buraya əklil qoyur.

# 2. Memar, Yuzef Qoslavskiyə (1865-1904) həsr olunmuş xatirə lövhəsi

Bakı, Mirzə İbrahimov küç., 11



**Yuzef Qolsavski** Varşavada anadan olub, Peterburq şəhərində Mülki Mühəndislər Institutunu bitirib. 1891-ci ildə Bakıya gəlmiş, bir il sonra isə şəhərin baş memarı olmuş və bu vəzifəni vaxtsız ölümünə qədər yerinə yetirmişdir. Eyni zamanda, əsasən Azərbaycanlı neft maqnatı, Zeynalabdin Tağıyevin sifarişi ilə özü layihələr hazırlayırdı.
Azərbaycan memarlıq tarixinin eksperti və polyak memarlarının fəaliyyətini təbliğ edən prof. Şamil Fətullayev-Fiqarovun qeyd etdiyi kimi: *"Qoslavski tikinti bumunu yaşayan şəhərə gəldi. Bu həm şəhərin planlaşdırılmış tikintisinin, "neft həyəcanı" adlandırılan xaosun öhdəsindən gəlməyin, həm də ucaldılan binalara qarşı tələblərin yüksəlməsinin başlangıcı idi. Artıq zəngin sənayeçilər azsaylı yerli mütəxəssislərin həddindən artıq işlə yüklənmiş və arxitektonik fantaziyaya malik olmayan layihələrindən razı qalmırdılar".*

Polyak memarı tərəfindən layihələşdirilmiş binalar - xüsusilə monumental, lakin incə qülləsinə görə çox yüngül görünən Nikolayevski 4 (hazırda İstiqlaliyyət küçəsi) ünvanında yerləşən Bakı Şəhər Dumasının binası Azərbaycan paytaxtının görünüşünü həmişəlik dəyişdirdi. Bəlkə də Qoslavskinin, diqər polyak inşaatçıları kimi, qərb memarlıq incəsənətini yerli motivlərlə birləşdirməyi və yerli materiallardan, əsasən Abşeron əhəngdaşından istifadə etməyi öyrəndiyi üçün bu binalar ətrafdakı binalarla vəhdət yaratdı.

Mirzə İbahimov 11 küçəsində yerləşən binada neft bumunun dövründən mebellə təchiz edilmiş mənzil qalıb (sahiblər, İrina və Vera Trofimovlar ilə əlaqə saxladıqdan sonra oranı ziyarət etmək olar). Orada Yuzef Qoslavskinin, həmçinin rus şairi, Sergey Yeseninin (1895-1925) əşyaları qorunub saxlanılır. Burada onun gitarası, bir neçə avtoqraf, həmçinin ailə əfsanəsinə görə şairin spirtli içkinin təsiri altında olduqda güllə atdığı bufet var.

1902-1904-cü illərdə, çox güman ki, burada yaşayan Qoslavskinin xatirə lövhəsi 2008-ci ilin 11 iyun tarixində Polşa Respublikasının Birinci Xanımı, Maria Kaçınska tərəfindən açılmışdı.



# 3. Yuzef Qoslavski tərəfindən Bakıda layihələşdirilmiş əsas binalar

## 3a.

Bakı Şəhər Dumasının binası, Nikolayevski küçəsi 4 (hazırda İstiqlaliyyət küçəsi, binada bu günlərdə də Bakı Hakimiyyəti öz vəzifəsini yerinə yetirir), 1899/1900-1904.

## 3b.

Nikolayevski 27 küçəsində yerləşən (hazırda İstiqlaliyyət küçəsi) yaşayış binası, 1893-1894.

## 3c.

Nikolayevski 8 küçəsində (hazırda İstiqlaliyyət) yerləşən Müsəlman Qız Məktəbi, (binada hazırda Hüseyn Cavidin Muzeyi yerləşir), 1898-1901.

## 3d.

Qorçakovskaya 4 küçəsində (hazırda Tağıyev) H.Z. Tağıyev Sarayı (hazırda orada Azərbaycan Tarix Muzeyi yerləşir), 1893-1902.

## 3e.

Vorontsova 19 küçəsində yerləşən Məlikovun üçmərtəbəli yaşayış evi (hazırda Səfərli küç.), 1893-1897.

## 3f.

H.Z. Tağıyevin Abşeronun Mərdəkan kəndindəki villası (bina botanik bağının sahəsində yerləşir), 1893-1895.

## 3g.

H.Z. Tağıyevin Abşeronun Zığ qəsəbəsində toxuculuq fabriki, 1896-1899.



## 4. Kazimej Skureviç (1866-1950) tərəfindən layihəsi hazırlanmış əsas binalar

**Kazimej Skureviç** Peterburq Mülki Mühəndislər İnstitutunu bitirmişdir (1894-cü ildə). Bakıya bir il sonra, Yuzef Qoslavskinin dəvəti ilə gəlmişdir. 1904-1907-ci illərdə şəhərin baş memarı vəzifəsini icra etmişdir. İnzibati vəzifədən əlavə olaraq, müxtəlif obyektlərin layihələrini hazırlayırdı. Bakı üçün ilk əvvəl, **Xəzər Dənizinin sahilində yerləşən** XX əsrin ilk illərində "yaşıl memarlıq" sahəsində pioner **bulvarın şərik müəllliflik** xidmətində idi. Azərbaycanda on iki il yaşadıqdan sonra, 1905-ci ildə inqilab hadisələrində iştirak etdiyi üçün həbs və katorqaya göndərilməkdən qorxaraq Varşavaya köçüb getdi. Varşavada yerləşən Kral Sarayının bərpa işlərinə rəhbərlik (həmin vaxt orada Stefan Jeromski yaşayırdı) və Krakovdakı Vavel qəsrinin təmirinə nəzarət edirdi. O həmçinin, Suleyuvkda Yuzef Pilsudskinin evinin layihəsinin müəllifi idi, II Dünya Müharibəsindən sonra isə Varşava Politexnik İnstitutunda Memarlıq Fakültəsinin açılışını təşkil etmişdir. **Onun ən məşhur işi Varşavada Veyska küçəsində yerləşən polyak Seyminin binasıdır.**

### 4a.

Krasnovodsk və Merkuryev küçələrin (hazırda Vurğun küçəsi və Zərifə Əliyeva küçəsi) tinindəki Dövlət Bankının binası, 1897-1899.

### 4b.

Persidski 13 (hazırda Muxtarov) küçəsindəki Rotşildlərin kontoru (hazırda Azərbaycan Respublika Prokurorluğu), 1897-1899.

### 4c.

Olqinski 4 küçəsində (hazırda Rəsulzadə küç.) Tağıyev pasajı (sonradan bina ticarət mərkəzinə çevrildi ), 1896.

## 5. Yuzef Ploşko tərəfindən layihələşdirilmiş əsas binalar (1867-?)

**Yuzef Ploşko**, ondan əvvəlki iki memar kimi, peşə səriştəsini Mülki Mühəndislər İnstitutunda əldə etmişdi. Təhsilini bitirdikdən sonra (1895-ci ildə) Kiyevdə iki il işləmiş və oradan Bakıya gəlmişdi. Azərbaycanın paytaxtına onu Yuzef Qoslavki çağırmışdı. 1907-1910-cu illərdə Ploşko şəhərin baş memarı vəzifəsində çalışırdı.

Sözü bir daha prof. Şamil Fətulayev-Fiqarova verək: *"Ploşkonun Bakıya Qoslavskidən 6 il sonra gəlməsinə baxmayaraq, onun müqayisə olunmayan çətin bir başlanğıcı var idi. Çünki bu altı il fasiləsiz tikinti eldoradosu, sürətli inkişaf və ildırım sürətli karyeraların illəri idi. [...] İstedad və zəhmətsevərliyinin sayəsində Ploşko, müəyyən bir müddətdən sonra, ən məşhur memarlardan biri olmuşdu. Bakıda isə onun monumental, gözəl layihələndirilmiş və icra olunmuş obyektləri ucalmağa başlayırdı. Bunların arasında klassik üslubundan başlayaraq, yüksək Venesiya və fransız qotikasından tutmuş, XX əsrin əvvəlində ən müasir istiqamət olan setsesiyaya qədər üslublarda inşa edilmiş yaşayış, ictimai binalar və dini mahiyyətli olan tikililər var idi".*

Ploşkonun rəğbət oyadan "portfoliosunda" saray və yaşayış binaları, kilsə və məscidlər, mehmanxana və kazinolar yer tapmışlar. O Azərbaycanın paytaxtında fəaliyyət göstərən hərtərəfli yaradıcı insan idi. Yuzef Qoslavskinin Zeynalabdin Tağıyevlə əməkdaşlıq etdiyi müddətdə, Yuzef Ploşko digər Azərbaycanlı neft maqnatlar – Murtuza Muxtarov və ilk əvvəl, Ağa Musa Nağıyevin "saray" memarı kimi fəaliyyət göstərirdi. Həmçinin neft maqnatları olan polyak ailəsi Rılskilər üçün də layihələr hazırlayırdı. 1925-ci ildə, Azərbaycanda otuz il yaşadıqdan sonra, Varşavaya, sonra isə Fransaya yollandı.



### 5a.

Nikolayevski 10 (hazırda İstiqlaliyyət) küçəsində yerləşən "İsmailliyə" binası (hazırda orada Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti yerləşir), 1908-1913.

### 5b.

Perskaya 6 (hazırda Muxtarov) küçəsində yerləşən Murtuza Muxtarov Sarayı (hazırda Səadət Sarayı), 1911-1912.

### 5c.

Qorçakovskaya 13 (hazırda Tağıyev) küçəsində yerləşən "Yeni Avropa" Mehmanxanası, 1910-1913.

### 5d.

Telefonnaya 4/6 (hazırda 28 May) küçəsində yerləşən dördmərtəbəli əkiz yaşayış binaları, 1907/1908-1910.

### 5e.

Şemaxinskaya 12 (hazırda Cəfər Cabbarlı) küçəsində yerləşən Kərbalai İsrafil Hacıyevin Sarayı, 1910-1912.

### 5f.

Molokanski 47 (hazırda Xəqani) küçəsində yerləşən Ağa-Musa Nağıyevin evi, 1912.

### 5g.

Milli Park, Nefçilər 36 küçəsində yerləşən "Fenomen" kinosu, (hazırda Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı), 1908-1910.

### 5h.

Birinci Kannitapinska 75 (hazırda Salatın Əsgərova), Perskaya döngəsi (hazırda Muxtarov) küçəsində yerləşən Haci Sultan Əli Məscidi, 1904-1910.

### 5i.

Milli Park, Neftçilər 65 küçəsində yerləşən Amiraslanovlar evi (hazırda onun qarşısında fəvvarə yerləşir), 1907.

### 5j.

Tarqovaya 93 (hazırda Nizami) küçəsi, həmçinin Qoqol 16, Tarqovaya döngəsində yerləşən yaşayış evləri, 1908-1910.

### 5k.

Rılski ailəsinin köhnə evi – 1919-cu ildə Polşa Respublikasının Konsulluq şöbəsinin binası. Layihəsi Yuzef Ploşko tərəfindən hazırlanmış 1912-ci ildə tikilən dördmərtəbəli bina Polis 11 (hazırkı Məmmədəliyev) küçəsində yerləşir. Polşa Respublikasının Azərbaycan Demokratik Respublikasındakı Nümayəndəliyinin rəhbəri Stefan Rılski idi.



## 6. Olqinskaya 5 (hazırkı Rəsulzadə) küçəsində yerləşən Bakıda Konstantin Borısoqlebski tərəfindən layihələndirilmiş “Olqinski dükanları” binası

**Konstantin Borısoqlebski** (doğum və ölüm tarixi təyin olunmayıb) Bakıya 1910-cu ildə gəlib. 1910-1914-cü illərdə şəhərin baş memarı vəzifəsində çalışıb. Azərbaycanın paytaxtında ictimai istifadə obyektlərinin tikintisinə xidmət edib.

## 7. Bakıda Eugeniuş Skibinski (1858-?) tərəfindən layihələşdirilmiş əsas binalar

**Eugeniuş Skibinskinin** əsli Şamaxıdan idi. Bakıya kiçik yaşlarında gəlib. Çox güman ki, onun valideynləri Şamaxıda 1859-cu ildə baş verən zəlzələdən sonra oradan köçməyə qərar vermişdilər. 1886-cı ildə Peterburq Təsviri İncəsənət Akademiyasını bitirib Azərbaycana qayıtdı. Bakı yerli hökumətinin memarlıq şöbəsində işləyən ilk polyak idi. 1896-cı ildən Bakı Texniki Məktəbində müəllim kimi fəaliyyət göstərirdi. Eyni zamanda, layihələr də hazırlayırdı. Məmur, tacir, varlı əsnaf və neft sənayesinin ustaları üçün nəzərdə tutulan yaşayış binaları üzrə ixtisaslanırdı. 1900-cu ilə qədər sayı 250-dən çox layihə hazırlamışdı.

### 7a.

Bakı dəmir yolu vağzalının binası (Euqeniuş Skibinskinin şərik müəllifliyində) Vağzal Azadlıq prospektindən şərqdə, Xətai prospekti və Dilarə Əliyevə küçəsinin arasında, 28 may metrosunun yanında yerləşir.

### 7b.

Bakıda, Persidski 24 küçəsində (hazırda Muxtarov küçəsi, burada Memarlar Evi yerləşir) Ağabala Quliyevin yaşayış evi, 1899-cu il.





## 8. Leopold (1892-1942) və Mstislav (1927-2007) Rostropoviçlərin ev-muzeyi

Bakı, Rostropoviçlər küç., 19

**Rostropoviçlər ailəsinin** ən tanınmış nümayəndəsi şübhəsiz ki, **Mstislav** olmuşdur – violonçel virtuozu, dirijor və sovet dissidenti (1974-cü ildən ABŞ-a mühacirət etmişdir). Çoxları xatırlamır ki, o, bir musiqiçi sülaləsinin varisi olmuş, onun əcdadları isə Polşalı idi. Mstislavın ulu babası, Boqoria zadəganlarından olan **Hannibal Rostropoviç**, Soxaçevin yanında, Skotniklərdə ev tikdirmişdi. O, tez-tez şer yazardı – onlar bu günədək qorunub saxlanılmışdır. Babası, **Vitold Vojçex** (1856-1913), pianoçu, bəstəkar və pedaqoq, Skotniklərdə anadan olmuş, mərkəzi Rusiya, Voronejdə isə vəfat etmişdir. Atası **Leopold** violonçelist və dirijor idi. Bütün həyatı boyunca Rusiyada yaşamışdır, lakin hələ də polyak dilində yaxşı danışa bilirdi.

Mstislav Bakıda anadan olmuşdur. Polyak dilini artıq bilmirdi (bəzi sözləri xatırlayırdı), lakin haralı olduğunu unutmurdu. **Vitold Lutoslavski və Kşıştof Penderetski ilə dostluq edir, müntəzəm olaraq Polşaya baş çəkirdi.** Həyatının son illərində Bakıda tez-tez olarkən əcdadları haqqında böyük həvəslə danışardı.

Muzey Rostropoviçlər ailəsinin 1925-1931-ci illərdə yaşadığı binada yerləşir.

## 9. Müqəddəs Məryəm katolik kilsəsinin yerləşdiyi məkan

Bakı, Zərifə Əliyeva və Behbudov küçələrinin kəsişməsi

Neoqotik kilsə **Yuzef Ploşko** tərəfindən layihələşdirilmiş, onun tikilməsi üçün vəsaitlər isə Bakıda yaşayan Polyaklar tərəfindən bağışlanmışdır. Əsas təsisçilər isə neft maqnatları – polyak Rılski ailəsindən neft milyonçuları idi: Hipolit, Leon, Onufri, Stefan və Maria. 1909-1911-ci illərdə tikilmiş məbəd 1931-ci ildə dağıdılmışdır. Onun yerində KQB (Dövlət Təhlükəsizlik Komitəsi) Feliks Dzerjinski adına Mədəniyyət Evi (hazırda Şəhriyar adına mədəniyyət evi) tikilmişdir. Əvvəldən prixod keşişi olan Stefan Demurov 1937-ci ildə həbs edilmiş və güllələnilmişdir (digər ehtimala görə Sibir düşərgəsində vəfat etmişdir).



## 10. Müqəddəs Məryəmin Qüsursuz Döllənməsi Katolik kilsəsi

Bakı, Orucov küç., 2A

Kilsədə, güman ki, bundan əvvəl dağıdılmış kilsədən qalmış XIX əsrin İsa Məsihin taxtadan fiquru (yüksəkliyi 130 sm) yer alıb. Bu, fiqurun ölkədən çıxarılması cəhdini pozan, Azərbaycan gömrükçülərinin hədiyyəsidir. Kilsənin üç zəngi Zbiqnev Felçinskinin emalatxanasında düzəldilmiş və Polşa Respublikasının sabit Prezidenti, Lex Kaçinski tərəfindən hədiyyə edilmişdir (7 mart 2008-ci ildə təqdim edilmişdir).

## 11. Yanuş Korçak (1878-1942) və Məmməd Tağı Sidqinin (1854-1903) xatirə lövhəsi

Bakı, Zərifə Əliyeva küç., Pedaqoji Universitet

Lövhənin üzərində yazı görünür (Azərbaycan, rus və ingilis dillərində): **"əbədilik xeyirxahlığa xidmət etməkdədir"**. Lövhənin fonunda (uşaqlar tərəfindən dövriyyəyə alınmış Korçak və Sidqinin arxasında) Naxçıvan və Varşavaya xarakteristik tikililəri görmək olar. Məmməd Tağı Sidqi maarifçi, şair və tərcüməçi olmuşdur. 1993-cü ildə açılmış lövhənin müəllifi - ən tanınmış müasir Azərbaycan heykəltəraşı Ömər Eldarovdur (təv. 1927 ci il).

## 12. "Farıs" jurnalının keçmiş binası

Bakı, Zərifə Əliyeva küç., 10

**"Farıs. Ədəbi-elmi və ictimai jurnalı"** – 1907-1908-ci illərdə polyak dilində çıxan jurnalın qərargahı Merkuriyevski 10 küçəsində (hazırda Zərifə Əliyeva) yerləşirdi. Vinyetkada göstərildiyi kimi, redaksiya hər gün saat 8-dən səhər saat 10-dək işləyirdi.

## 13. Bakı Slavyan Universitetində Polyak Dili və Mədəniyyəti Mərkəzi

Bakı, Süleyman Rüstəm küç., 25

2006-ci il 9 noyabr tarixində, PR-nın Senatının Sədri Boqdan Boruseviç tərəfindən açılmış Polyak Dili və Mədəniyyəti Mərkəzi ixtisaslı dil emalatxanası, təqdim edilmiş kitabxana və klubun birləşməsidir. Burada polyak qəzetlərini oxumaq və polyak kinosuna baxmaq olar. Formal olaraq o, Bakı Slavyan Universiteti (BSU – Süleyman Rüstəm küç., 25) – polonistləri yetişdirən yeganə Azərbaycan məktəbinin təşkilatı strukturdur.

Mərkəz üçün ayrılmış otaqların təmir işlərini **PR-nın Bakıdakı Səfirliyi** aparırdı. Bu məqsəd üçün vəsait – həmçinin avadanlıq – sponsorlar tərəfindən verilmişdir. Onların arasında Azərbaycan və polyak firmaları, polyak ali məktəbləri, fondlar, QHT-lar və fərdi şəxslər var. Mərkəzinin açılışına polyak dilinin müəllimləri – **Katajına və Lukaş Kaleta**, həmçinin məktəbin rektoru, **prof. Kamal Abdulla** və rəhbərliyi səbəb oldular.





## 14. Xəzər Dənizinin Bakı Körfəzində Nargin adası (hazırda Böyük Zirə)

"Azərbaycan Qulaq" adlandırılan ada yüz ildən bəri pis şöhrətə malik idi. Birinci dünya müharibəsinin ərəfəsində rus hökuməti orada türk əsirləri üçün düşərgə yaratmışdır. 20-30-cu illərdə Nargində sovet həbs düşərgəsi mövcud idi. II Dünya müharibəsindən sonra orada hərbi hissə yerləşdirilmişdir.
Adaya düşmüş polyaklar, SSRİ tərəfindən zəbt edilmiş II-ci Polşa Respublikasının şərqi ərazisində 1940-cı ilin payızı və 1941-ci ilin yazında Qırmızı Orduya aparılmış çağırışdan idilər. Onların taleyi haqqında Krıstına Laskoviçin *"Stroybatalyonı"* məqaləsində (*"Karta"* nr 2/1991) yerləşdirilmiş Yan Klimoviçin hesabatlarından məlumat alırıq. Vilno ətraflarından olan Klimoviç (təv.1919-cu il) 1940-ci ilin oktyabr ayında səfərbər edilmiş və Bakıya düşmüşdür. Onun çağırış qrupunda 40-a yaxın polyak var idi. Burada daha əvvəl gətirilmiş digər polyaklar da var idi. 24 iyul 1941-ci ildə polyak əsgərlərindən kəmərlər, ayaqqabı və alt paltarları alınmış, cırıq-cırıq fəhlə paltarları paylanılmış və adaya göndərilmişlər. Orada tikinti batalyonu formalaşdırılmış - əslində isə bu cəza kampaniyası idi: gün ərzində ərzaq payı 250 qram qurudulmuş çörək və üç kasa sulu şorba təşkil edirdi, burada həbsxana rejimi tətbiq edilmişdir (batalyonun tapşırığı bərkidicilərin tikilməsindən ibarət idi; iş zamanı polyaklar 20-30-cu illərin əsirlərinin qəbirlərini açır və onların üzərinə dərhal beton tökürdülər).
Klimoviç yazdığına görə Nargində 200 yaxın polyak var idi, onlardan yarısını etnik polyaklar təşkil edirdi. Yarım il ərzində ağır iş, xəstəlik və aclıqdan 50 nəfərə yaxın insan vəfat etmişdi. 1942-cı ilin fevral ayında əsgərlərin çoxusu başqa adaya – Peşgana (Gişgin) köçürüldü. Burada şərait bir az yaxşı idi. Orada 120-yə yaxın polyak vətəndaşı olmalı idi. Bir ay sonra bütün qrup Bakıya gətirildi. 1942-ci ilin iyun ayında Klimoviç Türkiyə ilə sərhədə göndərilmiş, oradan isə o, Krasnovodskdan Andersin Ordusuna düşmüşdür.



# Bakıdan (və Abşerondan) kənar






## 15. Şamaxı şəhəri

Şamaxı şəhərində 743-cü ilin Cümə Məscidi yerləşir. Bu məscid 1902-ci ildə baş vermiş zəlzələ nəticəsində dağılmışdır. Məscidi **Yuzef Ploşko** bərpa edirdi, lakin Şamaxı quberniyasının maliyyə problemləri üzündən təmir işlərini təmami ilə bitirmək mümkün olmadı. 1918-ci ilədək məscidin ancaq əsas korpusu tikilmişdir. Minarələr, eləcə də mərkəzi günbəz (icraçılar onun metal karkasını Varşavadan sifariş etmişlər) yarımçıq qaldı.

Şamaxının 8 km şimal-şərqində Meysəri kəndində (Şamaxı-Ağsu yolundan 2 km şimal tərəf) XX-ci əsrin 30-cu illərinədək məscid yerləşirdi və onun içinə *"Polonus Joannes Dembovscius fecit 1618"* yazısı ilə daş salınmışdır (1618-ci ildə polyak **Yan Dembovski** tikmişdir). Bu haqda məlumatı valeh edici *"Qafqaz. On iki illik əsirlikdən xatirələr"* əsərinin müəllifi Mateuş Qralevski (1826-1891) verir. Dembovski həmin məscidin təsisçisi sayılır.

## 16. Lənkəran şəhəri

Köhnə xristian qəbiristanlığında bir neçə polyak məzarı, onların arasında 1882-ci ildə vəfat etmiş **Anna Hrıntseviç** var.

## 17. Gəncə şəhəri

XIX-cu əsrin sonlarında Yelizavetpol quberniyasının baş memarı **İqnatsı Kşıştaloviç** idi (Yelizavetpol – SSRİ vaxtı Kirovobad – 1991-ci ildə Azərbaycan müstəqilliyini qazandıqdan sonra tarixi Gəncə adına qayıtdı). O, Yelizavetpolun ilk baş planının müəllifi olmuşdur (1873). Onun səyləri - və digər polyak, mühəndis **Pavel Koqnovitski** ilə əməkdaşlığın nəticəsində şəhər şəffaf planlaşdırmaya malik oldu. İmperiyanın bu hissəsində belə plan istisna idi. Həmçinin hər iki yaradıcı fəaliyyətləri nəticəsində şəhərin tarixi səciyyəsini itirdiyində günahlandırılmışdı. Əlavə etmək lazımdır ki, Kşıştaloviç eləcə də zəngin yelizavetpol vətəndaşlarının fərdi sifarişləri ilə yaşayış binaların və evlərin layihələrini hazırlayırdı. Onlar bu günədək Gəncədə və yaxındakı dağ istirahət zonası olan Hacıkənddə dururlar. Koqnovitski haqqında məlumdur ki, o, Peterburq Mülki Mühəndislər İnstitutunu bitirmişdir, 1895-1910-cu illərdə isə Yelizavetpol quberniya idarəsində işləmiş, oradan Tiflisə getmiş, oktyabr inqilabından sonra isə Bakıda məskunlaşmışdı.

## 18. Zaqatala şəhəri

XIX-cu əsirdə Zaqatala qalasında bir çox polyak cəza hərbi xidməti keçirdi. Xidməti bitirdikdən sonra (yaxud sürgünlük cəzasını bitirdikdən) bəziləri şəhərdə həmişəlik qalmağa qərara gəlirdi. Onlar və qazanc məqsədi ilə öz xoşları ilə gələnlərdən ibarət polyak koloniyası (XIX-cu əsrin sonunda 200-ə yaxın adam var idi) öz hesabına kiçik kilsə tikmişdi (bina indiyənədək qalıb, bir neçə vaxt bundan əvvəl orada fabrik yerləşirdi). Qafqaz dağlarının cənub ətəyini əhatə edən Zaqatala milli parkının ərazisində qalada xidmət çəkən əsgərlərin məzarlığı var, onların arasında polyaklar da dəfn edilmişdir.

Zaqatalada görkəmli geoloq, Geologiya Elmlərin Tarixi üzrə Beynəlxalq Komitənin təsisçi üzvü **Antoni Laskeviç** (1904-1980) anadan olmuşdur. Uşaqlıq və gənclik illərini Gürcüstan, Qori də keçirmiş, 1920-ci ildə isə Varşavaya köçmüş və orada məskunlaşmışdır.

**Zaqataladakı polyakların tarixinin bilicisi oradakı muzeyin direktoru, Cahangir Soltanovdur (təv. 1958-ci il).** *"Nowe Państwo"* (tərc. Yeni Dövlət) aylıq jurnalına verdiyi müsahibədə (Andjey Talaqa, *"Lechici Kaukazu"* (tərc. Qafqaz Lexləri) nr. 12/2004) Soltanov söyləmişdir ki, 1830, 1846 və 1863-cü illərdəki üsyanlardan sonra Zaqatalaya daha çox polyaklar gəlib çıxmışdır.

## 19. Qusar şəhəri

XIX-cu əsirdə yerli qarnizonda bir çox polyak xidmət etmişdir. Onlar hətta öz tələbləri üçün kilsə tikdilər. Bina bu günədək qalıb – indi orada mədəniyyət evi yerləşir (yerlilər oranın tarixini bilirlər).

**Vintsent Qedeon Qiedroyts** (təxmini 1825-ci ildə anadan olmuşdur) öz **şerlərindən birində bu şəhərciyi əbədiləşdirmişdi**. O, Qafqaza 1848-ci ildə həbs olunduqdan sonra göndərilmişdi:

*Qusara təzə çatmışdım ki, bir neçə yerlim*
*Məni salamlamağa qaçıb gəldi, çünki polyaklar*
*O an gəlişim haqqında bildi;*
*Bu görüşü ömrümdə yadımdan çıxartmaram.*
*Çoxdan sürgün edilmiş, üzləri vaxtından əvvəl qırış-qırış olmuş*
*Həmyerlilərim içində dərin əzab-əziyyətin ləkəsini daşıyırdılar*
*[...].*

653



## 20. Qafqaz dağları

Qafqaz dağlarının Azərbaycan hissəsində Allila yaşayır – **Çeslav Nemenin** az tanınmış, lakin çox gözəl əsərinin qəhrəmanı (ölkənin adını Nemen *Azərbaycan* kimi qeyd etmişdi, polyak dilində düzgün yazılışı isə *'Azərbaycan'* dır).

*Allila...*
*Alliladı o qızın adı*
*görürəm Onun gözlərində Azərbaycanımı*

*Atası dağlardan düşməyimə əmr etdi*
*Gözləri yeddi il məni təqib etdi*
*Hələdə indi burada yalnız qalanda*
*Xatırlayıram – onun gözləri qaldı orda*

*Ürəyimin dərinliyində əzabla gəzirəm*
*O anları unuda bilmirəm*
*İlk dəfə gözlərinin parıltısı kor edəndə məni*
*İstisi yandırdı varlığımı dərin*

*Yüksək dağlarda qoca kənd yatır*
*Boz göllərdə ay onunla batır*
*Onun gümüş hilalını dərindən çıxararam*
*Gün gələndə o qıza verərəm*

*Yol ayrıcında Allilanı gözləyirəm*
*Əminəm, Tanrının köməyi ilə qayıdaram*
*Küləyi yəhərləyib Allilanın gözləri və Azərbaycan*
*Olduğu yerə - düz orda olaram.*

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

aku

in Baku

B 653

# Polish Places in Baku

The first significant Polish-Azerbaijani encounters took place in **the sixteenth century**. Persia, which Azerbaijan was part of, was looking for allies against the Ottoman Empire in Europe. Conflicted with the High Porte the Republic of Poland seemed a perfect ally for the Persian shahs. On the Caucasian roads began to appear **deputies and diplomatic agents** from both sides. They joined **the merchants**, who came here for supplies of "Eastern" goods enjoying popularity in Poland: textiles, cold weapons, jewellery and spices. The third group of travellers constituted **missionaries**. In the seventeenth and eighteenth centuries, in almost all major cities of historical Azerbaijan there were missions of Dominicans, Carmelites and Jesuits, where the majority of the monks were of Polish origin.

**Intensification of relations occurred in the nineteenth century, when, as a result of partitions of Poland and Russian conquests in the Caucasus, Warsaw and Baku found themselves in the same country.** Poles, who visited Azerbaijan at that time, and without exaggeration there were thousands of them, can be divided into two groups. **The first were the exiles,** condemned to penal service, usually in the local military garrisons (the Caucasus was called "warm Siberia"). **The second group consisted of people who came voluntarily, for work, career and money**. They were mostly highly qualified specialists: engineers of various specialisations, architects, doctors, scientists.

**Polish migration to the Caucasus took the largest magnitude in the last two to three decades of the nineteenth century and was associated with the Baku oil boom.**



[1] Some of the people, both from the first and the second group, left behind often colorful and very interesting printed memories, but usually not reprinted since the first edition (some of these works can be found in the National Digital Library: http://www.polona.pl/dlibra).

